BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 *Sosial-siyasi elmlər seriyası* 2005

# KONSTİTUSİYA MƏHKƏMƏ İCRAATI ƏDALƏT MÜHAKİMƏSİNİN NÖVLƏRİNDƏN BİRİ KİMİ

**Z.Ə.SƏMƏDOV**

*Məqalədə Azərbaycan Respublikasında yeni icraatın – konstitusiya məhkəmə icraatının xüsusiyyətləri, konstitusiya icraatında olan problem məsələlər araşdırılır, ənənəvi icraat növlərindən onu fərqləndirən əlamətlər təhlil edilir, müqayisəli analiz metodundan istifadə edilməklə Avropa və Amerika modelləri analiz edilir. Məqalədə konstitusiya məhkəmə icraatının problem məsələlərinin həlli yollarının müəyyən edilməsinə cəhd göstərilir.*

Azərbaycan Respublikasının məhkəmə sistemində ən mühüm nailiyyətlərdən biri konstitusiya ədliyyə orqanının – Konstitusiya Məhkəməsinin yaradılmasıdır. Konstitusiya ədalət mühakiməsi ilə Azərbaycan Respublikası Konstitusiyasının hüquqi müdafiəsi həyata keçirilir, insan və vətəndaşların konstitusion hüquq və azadlıqları təmin olunur, digər konstitusion dəyərlərin mühafizəsi həyata keçirilir.

Konstitusion ədliyyə ölkəmiz üçün ədalət mühakiməsinin yeni növüdür. Konstitusiya Məhkəməsinin hüquqi təbiəti barədə onun məhkəmə hakimiyyətinin ayrılmaz hissəsi olması və hakimiyyətin ənənəvi sisteminə daxil olub-olmaması barədə də fikir müxtəlifliyi mövcuddur. Xüsusilə bu məsələ 1996-cı ilin 6-8 may tarixlərində Budapeştdə keçirilən Avropa konstitusiya məhkəmələrinin 10-cu konfransında qaldırılsa da, konfransın yekun kommunike aktında müvafiq məsələ ilə bağlı vahid fikrə gələ bilinməmişdir.(3) Məhkəmə hakimiyyətinin təşkilinin Amerika modelli ölkələrində məhkəmənin qanunların konstitusiyaya uyğunluğunu həyata keçirməsi üzrə fəaliyyətinin dövlət – hüquqi təbiətinin müəyyənləşməsi problemi tam şəkildə istisna olunmasa da, burada vəziyyət o qədər də çətin deyildir. Çünki həm bu, həm də digər funksiyalar ümumi məhkəmə sistemi ilə həyata keçirilir. Lakin müvafiq qruplu ölkələrdə ziddiyyətli tərəf ondan ibarətdir ki, ümumi məhkəmənin rolunun yüksəlməsi nəzarət funksiyasının həyata keçirilməsini daha da çoxaldır. Başqa cür söyləsək, «məhkəmə hakimiyyəti» ümumi ədalət mühakiməsindən çox konstitusiya səlahiyyəti əldə edir. Təşkilati və funksional müstəqilliyi ilə səciyyələnən ixtisaslaşdırılmış konstitusiya məhkəmələrinin «Avropa» modelində onların fəaliyyətinin dövlət – hüquqi təbiəti ilə bağlı müxtəlif əsasların olması üçün şərait yaratmaqla məhkəmənin təşkili və funksiyalaşmasının siyasi və hüquqi başlanğıcları arasındakı problemi daha da sərtləşdirir.

Xüsusilə, konstitusiya məhkəmələrinin statusunun konstitusiyada nizama salınması müvafiq dövlətin konstitusiyasında məhkəmə hakimiyyəti haqqında bölmələri ilə üst-üstə düşməyən ayrıca, müstəqil bölmələr (fəsillər) vasitəsilə həyata keçirilir. Konstitusiya Məhkəmələri çox nadir hallarda bütün məhkəmə növlərinin statusu haqqında ümumi bölmələrdə (AFR-ın Əsas Qanunu, Azərbaycan Respublikasının Konstitusiyasının «Məhkəmə hakimiyyəti» adlanan VII fəsli) əks olunur. Qərb doktrinası sadalanan hallara baxmayaraq, konstitusiya məhkəmələrinin siyasi-hüquqi təbiəti barədə nəticəyə münasibətdə Konstitusiya Məhkəməsini hakimiyyətin ümumi sistemində onun lokallaşması üsulundan asılı olmayaraq, məhkəmə hakimiyyətinin elementi hesab edir.(4)

Müəlliflərdən L.Favore Fransanın Konstitusiya Şurasını konstitusiya məhkəməsi ilə müqayisədə spesifikliyinə baxmayaraq, onu məhkəmə orqanına xas olan, bir çox prinsiplərlə əlaqəli yurisdiksion orqan kimi hesab edir.(5) Hesab olunur ki, qanunların və digər normativ hüquqi aktların konstitusiyaya uyğunluğunu həyata keçirməsi üzrə Konstitusiya Məhkəməsinin fəaliyyətini qanunverici, icra və məhkəmə hakimiyyətləri ilə eyni cərgəyə qoymaq düzgün deyildir. Buna baxmayaraq, ixtisaslaşdırılmış konstitusiya məhkəmələri olan ölkələrdə vahid məhkəmə hakimiyyəti sisteminin dualizmi haqqında danışmağa əsas vardır. Onu nəzərə almaq lazımdır ki, Konstitusiya Məhkəməsinin məhkəmə hakimiyyəti və ya dördüncü hakimiyyət kimi tövsif edilməsi mövzusu konstitusiya nəzarəti ilə konstitusiya ədalət mühakiməsi arasında münasibətlər məsələsi ilə əlaqədardır. Məhkəmə hakimiyyətinin təşkilində yarısentrizm şəraitində müxtəlif məhkəmə növlərinin səlahiyyət məsələsi də aktuallıq təşkil edən problemlərdəndir. Müəlliflərdən A.D.Boykov hesab edir ki, Konstitusiya Məhkəmə İcraatının müstəqil ədalət mühakiməsi növü hesab edilməsi mübahisəlidir.(6) Onun bu fikri ilə razılaşmaq olar ki, müvafiq məsələ nəzəriyyədə «öz lazımi tədqiqini tapmayıb». Bununla yanaşı «yeni növ məhkəmə icraatının ədalət mühakiməsinə aid olması məsələsi nəinki elmi, həm də praktiki əhəmiyyət kəsb edir.(7)

Qərb ədəbiyyatında konstitusion prosesi «Konstitusiyanın hüquqi müdafiəsi və onun interpretasiyasının qanuniliyini təmin etmək məqsədilə konstitusiya hüquq normalarının bilavasitə və məhdud tətbiqinə əsaslanan, ümumi yurisdiksion fəaliyyəti kimi müəyyən olunur». Eyni zamanda Konstitusiya Məhkəməsinə verilən müvafiq tərifin müəllifi L.Qarliski qeyd edir ki, konstitusion proses işlərin kateqoriyalarından asılı olaraq, ümumi cəhətlərlə adi məhkəmə prosedurunun modelini qəbul edir.(8)

Konstitusiya məhkəmə icraatının ümumi ədalət mühakiməsinin əlamətləri ilə müqayisədə spesifik cəhətlərinin analizini aparsaq müəyyən edə bilərik ki, konstitusiya məhkəmə icraatı yalnız cinayət və mülki məhkəmə icraatı aparan ümumi məhkəmələrlə üst-üstə düşməyən xüsusi konstitusiya məhkəmə icraatı vasitəsilə həyata keçirilir. Lakin onun məntiqi cəhətdən

ədalət mühakiməsi funksiyası ilə oxşarlıq təşkil etməsini də ədalətli hesab etmək olar. Çünki nəzərə almaq lazımdır ki, bu institutun Amerika modelli ölkələrində konstitusiya məhkəmə icraatını ümumi ədalət mühakiməsi orqanları həyata keçirirlər. Konstitusiya Məhkəməsi prosessual fəaliyyəti, məqsəd və nəticələrinə görə də spesifikdir. Bu dövlət orqanları və vəzifəli şəxslərin öz konstitusion səlahiyyət hədlərini keçmələri və Konstitusiyanın aliliyinin təmini məqsədilə müvafiq hüquqi prosedura qaydasında həyata keçirilən fəaliyyətdir. Bu zaman iştirakçıların dairəsi və məzmunu fərqlənən xüsusi növ prosessual hüquq münasibətləri yaranır. Konstitusion prosesin «qeyri məhkəmə» iştirakçıları siyasi fəaliyyətin subyektləri kimi çıxış edirlər. Konstitusiya Məhkəmə İcraatının nəticəsi –siyasi və hüquqi sənəd olan Azərbaycan Respublikası Konstitusiyasının normalarının tətbiqidir. Bunlarla yanaşı konstitusion prosesi yalnız hüquq tətbiqedici fəaliyyəti ilə eyniləşdirmək də kifayət deyildir. O, həmçinin qanunvericiliyin təfsirini də özündə ehtiva edir. Bu isə müəlliflərdən S.Y.Yeqorovun qeyd etdiyi kimi, «yeni qanunverici normasının yaratması nisbətində mühüm siyasi əhəmiyyət kəsb edir»(9). Bir sıra xarici dövlətlərin konstitusiya məhkəmələri elmi ədəbiyyatda «siyasi yurisprudensiya» adlanır(10). Konstitusiya məhkəmə icraatının adi məhkəmə icraatından fərqləndirici cəhətlərindən biri də konstitusiya məhkəmə icraatının rəngarəng və özünəməxsus olmasıdır.

Azərbaycan Respublikasının müasir konstitusiya prosesində məhkəmə icraatının ayrı-ayrı növləri üç meyarla həyata keçirilir: 1.Predmet meyarı.2. Subyekt meyarına görə 3. Konstitusiya nəzarətinin ilkin xarakter meyarına görə.

Konstitusiya məhkəmə icraatının ayrı-ayrı növləri barədə danışarkən, onlarda hüquq mühafizəedici və hüquq müəyyənləşdirici başlanğıcların olması barədə mühakimə yürütmək olar. Belə fərq fəaliyyət forması kimi konstitusion prosesi prosessual yurisdiksion fəaliyyət növlərinə xas olan xüsusi keyfiyyət kimi səciyyələndirir. Daha yüksək hüquq müəyyənləşdirici potensial Konstitusiyanın təfsiri ilə əlaqədar icraat üçün xarakterikdirsə, hüquq mühafizəedici vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi ilə əlaqədar icraat üçün səciyyəvidir. Konstitusiya məhkəmə icraatının digər məhkəmə icraatı formaları ilə yaxınlığı ilk növbədə prinsiplər kimi parametrlərdə özünü göstərir. Konstitusiya məhkəmə icraatının prinsipləri çox hallarda ümumi ədalət mühakiməsinin prinsipləri ilə eynidir. Belə ki, ədəbiyyatda qərb dövlətlərinin konstitusiya məhkəmələrinin xarakterizə edilməsi ilə bağlı göstərilir ki, aşkarlıq və şifahilik konstitusiya məhkəmə icraatı qaydasında məhkəmə araşdırması üçün xarakterik olmadığına görə bu Konstitusiya Məhkəməsini adi məhkəmələrdən fərqləndirir. Lakin onlarda istisnasız olaraq kollegiallıq prinsipi fəaliyyət göstərir. Qərbi Avropa ölkələrində konstitusiya məhkəmələrinin fəaliyyətini tədqiq edən L.Qarliski konstitusiya məhkəmə icraatını mülki

prosesə yaxın olmasını qeyd etməklə göstərir ki, onda dispozitivlik prinsipi mövcuddur. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi üçün qərəzsizlik və ədalət, hər kəsin qanun və Konstitusiya Məhkəməsi qarşısında bərabərliyi, açıqlıq və tərəflərin hüquq bərabərliyi və çəkişmə, kollegiallıq və icraatın aparıldığı dil prinsipi xarakterikdir ki, onlar Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikası Qanunun 25-30-cu maddələrində birbaşa təsbit olunub. Buna baxmayaraq, konstitusiya məhkəmə icraatının prinsiplərinin siyahısında cinayət mühakimə icraatında təsbit olunan təqsirsizlik prezumpsiyası, mülki prosesdə istifadə olunan ictimaiyyətin iştirakı, fasiləsizlik prinsipləri təsbit olunmayıb. Konstitusion proses həm də mərhələlərin xarakterinə görə də spesifikdir. Xarici qanunvericilikdə olduğu kimi, Konstitusiya Məhkəməsi haqqında qanuna müvafiq olaraq mərhələlər sistemi xüsusi olaraq tam həcmdə təsbit olunmasa da, mərhələlərin fərqləndirilməsi həyata keçirilməsə də, məntiqlə duyulur. Konstitusion prosesin çox mərhələli proses kimi nəzəri analizinin aktuallığı bu «yurisdiksion fəaliyyətin» həyata keçirilməsi zamanı «lazımi hüquqi proseduranın» təmini probleminin xüsusi mühümlüyü ilə izah olunur. Eyni zamanda mərhələlər hüquqi proseduranın «canını» təşkil edir. Buna görə də mərhələlər sisteminin nəzərə alınması, bütövlükdə hüquqi proseduradan asılıdır. Çox mərhələlik hüquqi proseduraya riayət edilməsinin mühüm faktoru kimi çıxış etməklə, prosessual formanın sadələşməsinə, son nəticədə konstitusiya məhkəmə icraatı aktlarının hüquqa uyğun olmasına gətirib çıxardır.

Konstitusiya məhkəmə icraatının mərhələlərə bölgüsünün həyata keçirilməsi nəzəri çətinlik yaradır. Əgər konstitusiya məhkəmə icraatının yurisdiksion fəaliyyətin növlərindən biri olması baxımından çıxış etsək, onda yalnız bir sistemli mərhələni təqdim etmək olar. Yox, əgər konstitusiya məhkəmə icraatı prosesini yurisdiksion formada həyata keçirilən normayaradıcı fəaliyyət kimi nəzərdən keçirsək, artıq meyarlar digər formada olacaq və mərhələlərin təsnifatı başqa cür aparılacaq. Konstitusiya məhkəmə icraatının mərhələləri-prosessual məqsədlərin ümumiliyi ilə xarakterizə olunan vahid Konstitusiya Məhkəmə İcraatının tərkib hissəsiir. Bizim fikrimizcə yurisdiksion prosesin növlərindən biri kimi konstitusiya məhkəmə icraatının altı mərhələsini ayırmaq olar:

1) müraciətin edilməsi (sorğu, şikayət, müraciət):

2) Konstitusiya məhkəməsinə müraciətin ilkin öyrənilməsi və baxılmağa qəbul edilməsi, yaxud müraciətin icraata qəbul edilməsindən imtina olunması (Konstitusiya Məhkəmə İcraatının başlanılması):

3) Məhkəmə araşdırılmasına hazırlıq:

4) Konstitusiya məhkəməsinin Plenumunun iclasında mahiyyəti üzrə işin araşdırılması:

5) Konstitusiya Məhkəməsində konkret iş üzrə qərarın elan

edilməsi:

6) Normativ aкt кimi Konstitusiya Məhкəməsinin qərarının qüvvəsinin təmini(11).

Tədqiq etdiyimiz məqalə çərçivəsində Konstitusiya Məhкəməsinin xaraкterizəsində mühüm aspeкtlərdən biri də onun ədalət mühaкiməsinin növlərindən biri olmasıdır. Bununla əlaqədar müəlliflərdən A.D.Boyкovun bu fiкri ilə razılaşmaq olar кi, ədalət mühaкiməsinin mühüm əlaməti кimi inкişaf etmiş prosessual formanın mövcudluğuna baxmayaraq, Konstitusiya Məhкəməsinin prosessual formasının təкmilləşməsi, onun qanunvericiliк bazasının dinamiк inкişafı yenə də perspeкtiv və кifayət qədər aкtual vəzifə olaraq qalır. Fiкrmizcə, Konstitusiya Məhкəmə İcraatının həll olunmayan prosessual məsələləri sırasına aşağıdaкıları aid etməк olar: 1) Konstitusiya Məhкəməsinin Ali məhкəmə ilə prosessual və qarşılıqlı fəaliyyətinin nizama salınmaması; Konstitusiya Məhкəməsinin proseduralarında ölкənin digər məhкəmə sistemlərinin nümayəndələrinin statusunun tənzimlənməməsi; 2) haкimlər tərəfindən Konstitusiya Məhкəməsinin prosedura qaydalarının pozulmasının nəticəsi və hüquqi əhəmiyyətli digər məsələlərin həll edilməsinin qeyri-mümкünlüyü; 3) Konstitusiya məhкəmə icraatında tərəflərin prosessual statusunun cinayət və mülкi məhкəmə icraatında olduğu кimi dərindən işlənilməməsi; 4) Azərbaycan Respubliкası «Konstitusiya Məhкəməsi haqqında Qanunun» 45.4-cü maddəsində əкs olunan eкspertin statusunun digər formulasının işlənilməsi. Müəlliflərdən B.A.Tumanov Rusiya Federasiyasının Konstitusiya Məhкəməsi haqqında qanunun prosessual müddəalar hissəsinə aşağıdaкı bəndlərin daxil edilməsini təкlif edir: 1) Konstitusiyanın təfsirinə dair ixtisaslaşmış əкsəriyyət sistemindən, prinsipindən imtina etməк lazımdır; 2) ümumi yurisdiкsiyalı məhкəmələr, qanunların кonstitusiyaya uyğunluğu məsələsini həll etməməlidir; 3) qanunverici Konstitusiya Məhкəməsi tərəfindən Konstitusiyaya müvafiq omadığına görə ləğv olunan normalarla analoji olan qanun qəbul etməк hüququna maliк deyildir; 4) Konstitusiya Məhкəməsinin qərarlarının ümumməcburi qüvvəsinin əlavə təminatlarının zəruriliyi; 5) Konstitusiya Məhкəməsinin qərarlarının icrasına təminat verilməsi(12). Müəlliflərdən V.V.Lazarev Avstriyanın Konstitusiya məhкəməsindəкi icraatını xaraкterizə edərкən qeyd edir кi, Konstitusiya Məhкəməsi təqdim olunan materiallardan çıxış edərəк, şifahi araşdırmanın кeçirilməsindən imtina edə bilər. Çünкi şifahi müzaкirədə mübahisənin daha da dərindən araşdırılmasını gözləməк düzgün deyildir. Bundan əlavə qapalı iclasda şifahi araşdırma olmadan aşağıdaкı qərarlar çıxarıla bilər: 1) кonstitusiya hüququnun açıq aydın pozulmadığı halda şiкayətin rədd olunması; 2) кonstitusiyaya zidd qanunun və ya hüquqa zidd aкtın ləğvi üçün əsas verən şiкayətin təmini haqqında qərar. Bir çox ədəbiyyatda göstərilir кi, nəzəri, məntiqi planda кonstitusion proses özünəməxsus məhкəmə icraatının analitiк formasını təşкil edir.

Fikrimizcə, analitik məhkəmə icraatı forması-peşəkar elmi fəaliyyətə maksimum yaxın olan, elmi tədqiqat işinin növlərindən olan, nəzəri tədqiqatın ən yüksək səviyyəsində həyata keçirilən məhkəmə fəaliyyətidir. Bu mənada müəlliflərdən B.E.Ebzeevlə razılaşmaq olar ki, Konstitusiya Məhkəməsi «bir tərəfdən dövlət mexanizminin elementi kimi, digər tərəfdən isə Konstitusiya hüquqi fikrin elmi tədqiqat laboratoriyası kimi çıxış edir».

Konstitusiya məhkəmə icraatının analitik xarakteri bir neçə faktorlarla müəyyən edilir. O ilk növbədə, xüsusi sosial və siyasi çərçivəsi və araşdırmanın predmetinin xüsusi mürəkkəbliyi ilə səciyyələnir. Onun vasitəsilə hüququn subyektlərinin ən geniş dairəsinə şamil olunan hüquqi aktların ekspertizası keçirilir. Ümumi məhkəmələrin belə fəaliyyətini, onları hətta bilavasitə konstitusion normaları tətbiq etsələr belə konstitusiya nəzarəti kimi tövsif etmək düzgün olmaz. Konstitusiya məhkəmə icraatının elmi-tədqiqat xarakteri yalnız predmet araşdırılması ilə deyil, həm də məhkəmə həqiqətinin əldə olunması metoduna görə də müəyyən edilir. Konstitusiya məhkəmə icraatında yalnız məhkəmə araşdırmasının klassik prinsiplərinə deyil, həm də hüquq elmində istifadə olunan xüsusi hüquqi tədqiqat metodlarına da riayət olunması mühüm əhəmiyyət kəsb edir. Dediklərimiz xüsusilə müqayisəli (Konstitusiyanın və yoxlanılan qanunların, normativ aktların müqayisəsi) və sistemli analiz metoduna şamil oluna bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. 1995.
2. Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikasının 3 dekabr 2003-cü il tarixli qanunu. Bakı, 2004.
3. Заключительное коммунике 10-й Конференции европейских конституционных судов // Вестник Конституционного Суда РФ.1996.№3.s.4.
4. İqtibas edilib: Шульженко Ю.Л. Конституционный контроль в России. М., 1995, s.16.
5. İqtibas edilib: Витрук Н.В. Конституционное правосудие. Учебное пособие. М., 1998, s.39.
6. Бойков А.Д. Третья власть в России. М., 1997. s.103.
7. Yenə orada. s.103-104.
8. İqtibas edilib: Шульженко Ю.Л. Конституционный контроль в России. М., 1995, s.147.
9. Егоров С.А. О политической юриспруденции в США // Советское государство и право. 1986, №7, s. 118-123.
10. Витрук Н.В. Конституционное правосудие. М., 2002, s. 218-219.
11. Boykov A.D. Göstərilən əsəri, s.104.
12. Научно-практическая конференция «Судебный конституционный контроль в России; уроки, проблемы и перспективы» (Обзор). М., // Государство и право. 1997, №5, s. 6.


## КОНСТИТУЦИОННЫЙ ПРОЦЕСС КАК ОДИН ИЗ ВИДОВ СУДОПРОИЗВОДСТВА

**З.А.САМЕДОВ**

## РЕЗЮМЕ

В статье освещаются особенности нового вида судопроизводства в Азербайджанской Республике – конституционного процесса, рассматриваются черты, отличающие его от других, традиционных видов судопроизводства, а также предпринимается попытка изучения ряда проблем конституционного судопроизводства и выяснения путей их разрешения. Вопросы темы исследуются с использованием метода сравнительного анализа при помощи которого выявляются особенности европейской и американской моделей конституционного контроля.